# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 83** **Bakı şəhəri, 4 mart 2020-ci il**

***“Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli qərarında dəyişiklik edilməsi haqqında***

“Şəhər və rayonlar üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə nəzərdə tutulan daxilolmalardan büdcə ilinin sonuna artıq daxil olan vəsaitin müəyyən hissəsinin həmin şəhər və rayonların sərəncamında saxlanılması və istifadəsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 719 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 28 dekabr tarixli 510 və 514 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı” üzrə:

1.1.1. “1.1.1.1.1.7” yarımmaddəsi “1.1.1.1.1.8” yarımmaddəsi hesab edilsin və aşağıdakı məzmunda “1.1.1.1.1.7” yarımmaddəsi əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 1 | 1 | 1 | 7 | Dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlarda işləyənlərin muzdlu işlə əlaqədar əldə etdikləri gəlirlərindən gəlir vergisi |

1.1.2. “1.1.1.2.1” maddə aşağıdakı redaksiyada verilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 1 | 2 | 1 | 0 | Rezident hüquqi şəxslərin mənfəət vergisi |
| 1 | 1 | 1 | 2 | 1 | 1 | Büdcə təşkilatları, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar üzrə mənfəət vergisi |
| 1 | 1 | 1 | 2 | 1 | 2 | Səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə mənfəət vergisi |
| 1 | 1 | 1 | 2 | 1 | 3 | Digər hüquqi şəxslər üzrə mənfəət vergisi |

1.1.3. “1.1.3.1” maddə aşağıdakı redaksiyada verilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 3 | 1 | 0 | 0 | Torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 1 | 0 | Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət, məişət xidməti və digər xüsusi təyinatlı torpaqlara görə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 1 | 1 | Büdcə təşkilatları, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar üzrə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 1 | 2 | Səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 1 | 3 | Digər hüquqi şəxslər üzrə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 1 | 4 | Fiziki şəxslər |
| 1 | 1 | 3 | 1 | 2 | 0 | Kənd təsərrüfatı təyinatlı torpaqlara görə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 2 | 1 | Büdcə təşkilatları, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar üzrə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 2 | 2 | Səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 2 | 3 | Digər hüquqi şəxslər üzrə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 2 | 4 | Fiziki şəxslər |
| 1 | 1 | 3 | 1 | 3 | 0 | Yaşayış fondlarının, həyətyanı sahələrin və bağ sahələrinin torpaqlarına görə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 4 | 0 | Digər təyinatlı torpaqlara görə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 4 | 1 | Büdcə təşkilatları, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar üzrə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 4 | 2 | Səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 4 | 3 | Digər hüquqi şəxslər üzrə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 4 | 4 | Fiziki şəxslər |
| 1 | 1 | 3 | 1 | 5 | 0 | Təyinatı üzrə istifadə edilməyən torpaqlara görə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 5 | 1 | Büdcə təşkilatları, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar üzrə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 5 | 2 | Səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 5 | 3 | Digər hüquqi şəxslər üzrə torpaq vergisi |
| 1 | 1 | 3 | 1 | 5 | 4 | Fiziki şəxslər |

1.1.4. “1.1.3.2.1” maddə aşağıdakı redaksiyada verilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 3 | 2 | 1 | 0 | Rezident və qeyri-rezident hüquqi şəxslərin balansında olan əsas vəsaitlərdən əmlak vergisi |
| 1 | 1 | 3 | 2 | 1 | 1 | Büdcə təşkilatları, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar üzrə əmlak vergisi |
| 1 | 1 | 3 | 2 | 1 | 2 | Səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə əmlak vergisi |
| 1 | 1 | 3 | 2 | 1 | 3 | Digər hüquqi şəxslərin əmlak vergisi |

1.1.5. “1.1.4.1” maddə aşağıdakı redaksiyada verilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 4 | 1 | 0 | 0 | Əlavə dəyər vergisi |
| 1 | 1 | 4 | 1 | 1 | 0 | Azərbaycan Respublikasında mal, iş və xidmətlərə görə əlavə dəyər vergisi |
| 1 | 1 | 4 | 1 | 1 | 1 | Büdcə təşkilatları, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar üzrə əlavə dəyər vergisi |
| 1 | 1 | 4 | 1 | 1 | 2 | Səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə əlavə dəyər vergisi |
| 1 | 1 | 4 | 1 | 1 | 3 | Azərbaycan Respublikasında istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı ticarət əlavəsindən ödənilən əlavə dəyər vergisi |
| 1 | 1 | 4 | 1 | 1 | 4 | Azərbaycan Respublikasında iş və xidmətlərə görə ödənilən qeyri-rezidentin əlavə dəyər vergisi |
| 1 | 1 | 4 | 1 | 1 | 5 | Elektron ticarətin satıcıları (təchizatçıları) tərəfindən işlərin və xidmətlərin təqdim edilməsinə görə qeyri-rezidentə ödəmələrdən əlavə dəyər vergisi |
| 1 | 1 | 4 | 1 | 1 | 6 | Elektron qaydada təşkil olunan lotereyaların, digər yarışların və müsabiqələrin keçirilməsinə görə qeyri-rezidentə ödəmələrdən əlavə dəyər vergisi |
| 1 | 1 | 4 | 1 | 1 | 7 | Digər hüquqi şəxslər üzrə əlavə dəyər vergisi |
| 1 | 1 | 4 | 1 | 1 | 8 | Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər üzrə əlavə dəyər vergisi |
| 1 | 1 | 4 | 1 | 2 | 0 | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi |
| 1 | 1 | 4 | 1 | 2 | 1 | Büdcə təşkilatları, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar üzrə malların idxalına görə əlavə dəyər vergisi |
| 1 | 1 | 4 | 1 | 2 | 2 | Səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə əlavə dəyər vergisi |
| 1 | 1 | 4 | 1 | 2 | 3 | Digər rezident və qeyri-rezident hüquqi şəxslər üzrə əlavə dəyər vergisi |
| 1 | 1 | 4 | 1 | 2 | 4 | Fiziki şəxslər tərəfindən malların idxalına görə əlavə dəyər vergisi |

1.1.6. “1.1.4.3” maddə aşağıdakı redaksiyada verilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 1 | 4 | 3 | 0 | 0 | Sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 1 | 0 | Hüquqi şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 1 | 1 | Büdcə təşkilatları, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar üzrə sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 1 | 2 | Səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər üzrə sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 1 | 3 | Bina tikintisi fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər üzrə sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 1 | 4 | Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslər üzrə sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 1 | 5 | Mülkiyyətində olan yaşayış və qeyri-yaşayış və torpaq sahələrinin təqdim edilməsini həyata keçirən hüquqi şəxslər üzrə sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 1 | 6 | İdman mərc oyunlarının operatoru və satıcıları olan hüquqi şəxslər üzrə sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 1 | 7 | İctimai iaşə fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər tərəfindən 8 faiz dərəcə ilə ödənilən sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 1 | 8 | Digər hüquqi şəxslər üzrə sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 2 | 0 | Fiziki şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 2 | 1 | Bina tikintisi fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 2 | 2 | Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən fiziki şəxslər üzrə sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 2 | 3 | Mülkiyyətində olan yaşayış, qeyri-yaşayış və torpaq sahələrinin təqdim edilməsini həyata keçirən fiziki şəxslər üzrə sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 2 | 4 | İdman mərc oyunlarının operatoru və satıcıları olan fiziki şəxslər üzrə sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 2 | 5 | İctimai iaşə fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən 8 faiz dərəcə ilə ödənilən sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 2 | 6 | Sabit məbləğ üzrə sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 2 | 7 | Digər fiziki şəxslər üzrə sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 3 | 0 | Pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə ödənilən sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 3 | 1 | Büdcə təşkilatları, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə ödənilən sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 3 | 2 | Səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan şəxslər tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə ödənilən sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 3 | 3 | Digər hüquqi şəxslər tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə ödənilən sadələşdirilmiş vergi |
| 1 | 1 | 4 | 3 | 3 | 4 | Fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə ödənilən sadələşdirilmiş vergi |

1.1.7. “1.4.2.5.9.3” yarımmaddəsindən sonra aşağıdakı məzmunda “1.4.2.5.9.4” yarımmaddəsi əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 4 | 2 | 5 | 9 | 4 | Şəhər və rayonlar üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə nəzərdə tutulan daxilolmalardan əvvəlki büdcə ilinin sonuna artıq daxil olan vəsaitin qanunvericiliklə büdcədənkənar gəlirlərə aid edilən hissəsindən daxilolmalar |

1.2. “Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə” üzrə:

1.2.1. 1.1.1.1-ci yarımbəndin üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

“Büdcə təşkilatlarında, dövlət adından yaradılan publik hüquqi şəxslərdə və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlarda, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan hüquqi şəxslərdə, Hasilatın Pay Bölgüsü Sazişləri üzrə podratçı və xarici subpodratçı təşkilatlarda fiziki şəxslərin gəlir vergisi də bu qruplar üzrə müvafiq olaraq öz əksini tapmışdır.”;

1.2.2. 1.1.1.2-ci yarımbənd üzrə:

1.2.2.1. “Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi” sözlərindən sonra “büdcə təşkilatlarının, dövlət adından yaradılan publik hüquqi şəxslərin, dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumların, səhmlərinin və paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan hüquqi şəxslərin və digər” sözləri əlavə edilsin;

1.2.2.2. aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin;

“Büdcə təşkilatlarının, dövlət adından yaradılan publik hüquqi şəxslərin, dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumların mənfəət vergisi dedikdə, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq təsis edilən və sahibkarlıq fəaliyyətindən gəlir əldə edən həmin şəxslərin mənfəət vergisi nəzərdə tutulur.”;

1.2.3. 1.1.3.1-ci yarımbənd üzrə:

1.2.3.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

“Torpaq vergisinin ödəyiciləri rezident və qeyri-rezident müəssisələr, büdcə təşkilatları, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar, habelə rezident və qeyri-rezident fiziki şəxslər hesab olunurlar.”;

1.2.3.2. ikinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin;

“Büdcə təşkilatları, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan həmin torpağa görə torpaq vergisi ödənilir.”;

1.2.4. 1.1.3.2-ci yarımbənd üzrə:

1.2.4.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

“Əmlak vergisinin ödəyiciləri rezident və qeyri-rezident müəssisələr, büdcə təşkilatları, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar, habelə rezident və qeyri-rezident fiziki şəxslər hesab olunurlar.”;

1.2.4.2. ikinci abzasın ikinci cümləsi üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Büdcə təşkilatları, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan həmin əmlaka görə əmlak vergisi ödənilir.”.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***